## ■ Murad Niyazlı

### Deyil

Sevincdən mi, kədərdən mi nəmlənib
Gözlər o gözlərdi, yaş o yaş deyil
Cəmi gözəllik camalında cəmlənib
Baxış o baxışdı, qaş o qaş deyil

Baxçamızda gül-çiçəyə batardın
Qoltuğuma qısılardın, yatardın
Hey dalımca söz safanı atardın
Dillər o dillərdi, daş o daş deyil

Qəncliyin üstünü aldı duman çen
Seni də meni də qocaltdı erkən
O qara tellərə min sığal çəkən
Əller o əllərdi saç o saç deyil

Dünyamızı yola saldıq bir təhər
Boğuldu arzular boğuldu qəhər
Yolunu gözləyən hər axşam səhər
*Murad* o muraddı yaş o yaş deyil